**UOT 94 (479.24)**
**https://doi.org/10.59849/2218-4783.2025.1.60**

**YEGANƏ MƏMMƏDOVA**

# NAXÇIVAN MSSR MİK-NİN SOVET QURUCULUĞU SAHƏSİNDƏKİ FƏALİYYƏTİ VƏ BU SİYASİ-İNZİBATİ STRUKTURUN FORMALAŞMASINDA AZƏRBAYCAN SSR RƏHBƏRLİYİNİN MÖVQEYİ

*Naxçıvan MSSR MİK-nin sovet quruculuğu sahəsindəki fəaliyyəti və Azərbaycan SSR rəhbərliyinin bu qurumun formalaşmasında mövqeyi və rolu geniş tədqiqatların mövzusudur. Təbiidir ki, bir kiçik araşdırma həcmində bu mövzunu tamamilə əhatə etmək mümkün deyil. Biz bu baxımdan Naxçıvan MİK-nin və Azərbaycan rəhbərliyinin bu ali siyasi quruma münasibətinin müsbət kontekstdə araşdırılmasına çalışmışıq. Məlumdur ki, MİK-nin yaradıldığı dövr sovet işğalının əsas dövrünə düşür. Ancaq çalışmışıq ki, bu tədqiqat işində MİK-nin müsbət addımlarının hansı nəticələr meydana gətirdiyinə diqqət yetirək. Əlbəttə, biz MİK-nin mənfi siyasi fəaliyyətinin də gərgin tarixi situasiyada mövcud olduğunu qeyd etmiş, müsbət nəticələrin milli-dövləti inkişafda mühüm rolunu ələ almışıq. İlkin olaraq mövzunu iki hissə olaraq tezisləşdirmiş, Naxçıvan MSSR MİK-nin sovet quruculuğu sahəsindəki fəaliyyəti və Azərbaycan SSR rəhbərliyinin bu sahədə mövqeyi və fəaliyyəti kimi ayrıca aspektdə nəzərdən keçirmişik. Təbiidir ki, bu da mövzu haqqında daha aydın təəssürat yaranmasına səbəb olmuşdur. İlkin olaraq Naxçıvan MSSR MİK-nin sovet quruculuğu adı ilə təhsil, səhiyyə, iqtisadiyyat və s. sahələrdəki fəaliyyətinə diqqət yetirmiş, xüsusilə əlifba islahatı, savadsızlıqla mübarizə kimi ciddi problemlərdə MİK-nin roluna diqqət yetirmişik. Daha sonra Azərbaycan SSR rəhbərliyinin Naxçıvan MİK-nin formalaşmasında roluna və mövqeyinə aydınlıq gətirmişik. Xüsusən, burada göstərmişik ki, Azərbaycan SSR rəhbərliyinin və Mərkəzi İcraiyyə Komitəsinin Naxçıvan MİK-nin formalaşmasında rolunun əsasında əsas etibarilə Naxçıvan MSSR-in Azərbaycan SSR-in tərkibində saxlanılması məqsədləri durmuşdur. Məhz bu mövqeyin müsbət tarixi nəticələri Naxçıvanı erməni təcavüzündən və asılılığını tamamilə itirməkdən xilas etmişdir. Məhz bunun əsasında Naxçıvan MİK-nin xüsusi rolu inkar olunmazdır. Bu araşdırmada tarixşünaslıq və politologiya sahəsində yeniliklər çoxdur. Ümid edirik ki, araşdırma orijinallığı etibarilə elmi ictimaiyyətin diqqətini cəlb edəcəkdir.*

**Açar sözlər:** *Azərbaycan MİK, Naxçıvan MSSR MİK, əlifba islahatı, savadsızlıqla mübarizə, təhsil, səhiyyə, iqtisadiyyat.*

**Giriş.** Sovet quruculuğu anlayışı demək olar ki, bütünlüklə XX əsrin 20-30-cu illərini əhatə edir. Naxçıvan MSSR MİK-nin bu sahədə fəaliyyəti bu baxımdan ilkin olaraq izlənilməlidir. Bu kontekst iki punkt üzrə tədqiq olunarsa, daha aydın tarixi təəssüratın meydana çıxmasına səbəb ola bilər:

1. Naxçıvan MSSR MİK-nin sovet quruculuğu sahəsindəki fəaliyyəti;
2. Azərbaycan SSR rəhbərliyinin bu strukturun formalaşmasında mövqeyi və fəaliyyəti.

Naxçıvan MSSR MİK-nin bu istiqamətdə fəaliyyətinin izlənilməsi üçün mövcud tarixi proseslərin icmalını çıxarmağa ehtiyac hiss oluna bilərdi. Lakin bu bir tədqiqat həcminə sığmadığı üçün MİK-in konkret addımlarına nəzər yetirmək daha münasib olar. MSSR MİK-nin fəaliyyəti dövründə həyata keçirilən mənfi və müsbət planlar bu baxımdan diqqətdə saxlanmalıdır. Yəni milli kimliyimizin dərk olunması, milli mənafeyin üst qatda olduğu məsələlər etibarilə yanaşma tərzi də təbiidir ki, sovet dövrünün baxış bucağından fərqli olaraq bu gün dəyişikliyə uğramışdır ki, əslində bu da özlüyündə çox müsbət hadisədir. Bu cəhətdən Naxçıvan MSSR-in MİK-nin reallaşdırdığı addımlar indiki prizmadan tədqiqə cəlb olunarkən bu kimi aspektlərin meydana çıxması da təbiidir. Onu da unutmaq olmaz ki, Rusiyadan asılı olan, daxildə isə erməni şovinizminin dəhşətli planlarının həyata keçirilməsinin daha real olduğu bir tarixi şəraitdə MİK-nin yalnız müsbət addımlarının mümkünsüzlüyü aydın görünür. Ancaq buna baxmayaraq yenə də bu gün də müsbət olaraq qəbul edilən mühüm nəticələr əldə olunmuşdur. Bu baxımdan bu dövrdə həyata keçirilən aktlara bu kontekstdə yanaşmaq da daha düzgündür.

**Əsas hissə. 1.** Naxçıvan MSSR MİK-in sovet quruculuğu sahəsindəki fəaliyyəti;

İlkin olaraq bu aspektdə təbiidir ki, MİK tərəfindən qəbul edilən əlifba islahatına nəzər yetirmək olar. Belə ki, əlifba islahatı hər zaman milli inkişafın dinamikləşməsində, cəhalətin və savadsızlığın aradan qaldırılmasında mühüm rola malikdir. F.Cəfərov və X.Hüseynov bu kontekstdə yazırlar ki, 1924-cü ilin mart ayında Naxçıvan MSSR XKS-in iclasında Naxçıvanda türk əlifbasının

həyata keçirilməsi haqqında qərar qəbul edilmişdi. 1926-cı ildə MİK-nin qərarı ilə bu əlifbaya keçirildi [1, s. 5]. Əslində əlifba islahatı ona görə həyata keçirilirdi ki, artıq rəsmi-inzibatı idarəçilik məhz yeni əlifbada fəaliyyət göstərməyə başlamışdı. Əgər yeni əlifbaya keçilməsəydi, rəsmi məsələlərin həllində əhali çox böyük əziyyət çəkəcəkdi. Təbiidir ki, bu məsələnin kökündə əhalini rəsmi-inzibati qurumlara uyğunlaşdırmaq dururdu. Lakin birmənalı olaraq Rusiyada işlənən əlifbaya deyil, türk əlifbasına keçilməsi tarixi situasiyada müsbət hadisə kimi dəyərləndirilə bilər.

Əlifba islahatı etibarilə 1922-ci ilin noyabr ayında Naxçıvan Mərkəzi İcraiyyə Komitəsi nəzdində yeni türk əlifbalı Komitə təşkil olunmuşdu. Bu Komitə Naxçıvanda yazıların latınlaşması işinin hamısını öz öhdəsinə götürmüşdü. Yeni latın əlifbalı birinci Komitənin tərkibinə Teymur Əliyev (sədr) daxil oldu. Onun müavini Həsən Səfərov və katib Xəlil Hacılarov təyin olundu [1, s. 25; 2, v. 76-77]. Bu komitənin ilk işi yeni əlifbanın formalaşdırılması üçün 1922-ci ilin iyul ayında əlifba islahatı üzrə tarixi sənədin meydana qoyulması oldu. Bu sənəd əsasında artıq yeni inzibati normativlərin köhnə əlifba ilə deyil, yeni əlifba ilə yazılması planı həyata keçirilməyə başlandı. Bu addımlardan başlayaraq əlifba islahatının Naxçıvanda təmin edilməsi istiqamətində əhəmiyyətli işlər görüldü [1, s. 25].

MİK-nin atdığı mühüm addımlardan biri də Naxçıvanda savadsızlığın ləğv edilməsi istiqamətində görülən tədbirlər olmuşdur. İlk olaraq onu qeyd edək ki, elə əlifba islahatı da kompleks tədbirlər silsiləsi olaraq savadsızlığın aradan qaldırılmasını prioritet götürürdü. Etiraf etmək lazımdır ki, XX əsrin 20-30-cu illərində nəinki Naxçıvanda və yaxud Azərbaycanda, eləcə də Qafqazda və demək olar ki, bütün Qafqazı işğal edən Rusiyanın özündə belə savadsızlıq mühüm problemə çevrilmişdi. Tarixi qaynaqda qeyd olunur ki, 1926-cı il siyahıyaalınmasına görə, Sovet əhalisinin 51%-i yaşı 9-dan yuxarı olan kəndlər savadsız idi [3, s. 251]. Azərbaycanda çox az adamların oxuyub-yaza bilməsi mühüm reallıq idi. Təsadüfi deyil ki, 1923-cü ilin dekabrında XKS-in sədri Q.Musabəyovun başçılığı ilə “Savadsızlıqla mübarizə komitəsi” yaradılmış, hətta 1924-cü il iyulun 17-də Azərbaycanda “Rədd olsun savadsızlıq” cəmiyyəti belə təsis olunmuşdur [4, s. 186]. Naxçıvan MİK-in savadsızla mübarizə istiqamətində proqramlaşdırılmış islahatlarına toxunmaq çox vacibdir. Məhz bu islahatda MİK-nin mühüm rolu diqqətdən qaçmamalıdır. Qeyd etmək lazımdır ki, 1926-cı ilin verilmiş siyahısında Naxçıvan respublikasının əhalisinin cəmi 12%-i savadlı idi [5, v. 1-15].

Qeyd edək ki, bu qaynağı F.Cəfərov, X.Hüseynov da göstərərək eyni mövqe nümayiş etdirmişlər [1, s. 29]. Tədqiqatçılar savadsızlıqla mübarizədə Naxçıvan MİK-nin də rolunu diqqətə çatdıraraq qeyd edirlər ki, Vilayət Partiya Komitəsi, Naxçıvan MİK və Xalq Komissarlar Soveti müntəzəm savadsızlığın ləğv olunmasının gedişi haqqında məsələlərlə çıxış edirdi [1, s. 19]. Hətta Naxçıvan MİK-nin bu məsələlərlə bağlı konkret addımlarından da bu tədqiqatda arxiv materialına istinadla bəhs olunur ki, 1924-cü ildə Naxçıvan MİK Rəyasət Heyəti xalq maarif orqanlarının məruzəsini dinləyib müzakirə edərək qeyd etdi ki, Xalq Komissarları yerli orqanlarının bir hissəsi savadsızlığın ləğv olunmasına dair işdən özünü kənara çəkdi. Naxçıvan MSSR Mərkəzi İcraiyyə Komitəsi bütün xalq komissarlıqlarına tapşırdı ki, bu vacib dövlət tədbirində təşkilat və idarələrin rəhbərləri fəal iştirak etsinlər [1, s. 19].

Göründüyü kimi, bu məsələ o qədər əhəmiyyətli prioritetə çevrilmişdir ki, Naxçıvan MİK özünə tabe olan orqanlara ciddi nəzarət edərək savadsızlığın aradan qaldırılması üçün ciddi nailiyyətlər əldə etmişdir. Məhz bu kimi ciddi nəzarətin nəticəsində savadsızlıqla mübarizəyə qoşulmaq istəməyən XKS-in fəaliyyəti bu istiqamətdə gücləndirilmişdir. Belə ki, 1924-cü ildə Naxçıvan MSSR Xalq Komissarlar Sovetinin qərarına əsasən Naxçıvan Respublikasında 1000 nəfər kəndli uşaq üçün savadsızlığın ləğv olunması işinə pulsuz dərs vəsaitləri (kitab, dəftər, karandaş, qələm, mürəkkəb və s.) verilmişdir [1, s. 20].

Naxçıvan MİK bu problemə o qədər ciddiyyətlə yanaşırdı ki, hətta Naxçıvan MİK-in savadsızlığın ləğv olunması kurslarında, savadsızlıq məktəblərində dərslərin plana uyğun keçirilməsi məqsədi ilə respublika hökuməti yerli sovet orqanlarına digər vasitələrə maliyyə xərcini, eləcə də Naxçıvan MİK-nin razılığı olmadan müəllimləri bir yerdən digər yerə dəyişmək və göndərməyi

qadağan etdi [1, s. 20, 21]. Naxçıvan MİK-in bu istiqamətdə ardıcıl məqsədyönlü fəaliyyəti nəinki 20-30-cu illərdə, hətta ondan sonrakı dövrlərdə də davam etmişdir. Belə ki, Naxçıvanda hələ 1938-ci ildə məktəbdən yayınmaların artması nəticəsində Naxçıvan MSSR MİK qərarı qəbul olundu və bu qərar yerli hakimiyyət orqanlarını məcbur etdi ki, bu sahə nəzarətə götürülsün [1, s. 89].

Məhz Naxçıvan MİK-nin xüsusi fəallığı nəticəsində Naxçıvanda savadsızlıqla mübarizə ciddi nəticələri ilə tarixə keçdi. Belə ki, 1935-1936-cı illərə aid məlumat göstəricilərində artıq əhalinin 70%-nin savadlılıq dərəcəsinə görə statistik olaraq təsdiqlənməsi mümkün olmuşdu [6, v. 41].

Qeyd edək ki, biz bu kontekstdə ayrıca monoqrafiyamızda da geniş bəhs açmışıq. Ancaq Naxçıvanda savadsızlıqla bağlı konkret olaraq Naxçıvan MİK aspektindən mövzuya toxunduğumuz və təkrarçılıq olmaması üçün bu məlumatlardan daha geniş səviyyədə istifadə məqsədilə göstərilən tədqiqat işimizdən bəhrələnmək olar [7, s. 15-38].

Naxçıvan MSSR MİK-in təhsil sahəsində müsbət addımları ayrıca mövzudur və təbiidir ki, savadsızlıqla mübarizə də təhsilin əsasında əsas faktor təşkil etdiyi üçün MİK-in bu istiqamətdə atdığı addımlar təqdir olunandır. Əlbəttə, təhsildə də sovet ideologiyasının mənfi nəzəri əsasları rol oynamışdır. Ancaq bu məcburi tarixi situasiyada Naxçıvan əhalisinin savadlandırılması nəticəsinə görə müsbət hadisə idi və bu gün də bu kimi islahatların müsbət nəticələri müstəqilliyin bərpasında vacib rola malik olmuşdur. Ümumiyyətlə, Naxçıvanda təhsilin inkişafı sahəsində 20-30-cu illərdə sovet quruculuğu adı ilə Naxçıvan MİK tərəfindən ciddi addımlar atılmışdır. Bu sahədə görülən əhəmiyyətli işlərdən ən mühümü təbiidir ki, əhalinin məktəblərə cəlb olunması idi. H.Cəfərov arxivlərə istinadla qeyd edir ki, muxtar respublikada təhsilə cəlb olunan azərbaycanlı şagirdlərin sayı daim artaraq 1926-27-ci illərdə artıq 85% təşkil etmişdi. 1925-ci ildə Naxçıvanda I dərəcəli məktəblərin ilk məzunları arasında azərbaycanlılar 79,6% idi. 1926-cı ildə MR-də 2 II dərəcəli məktəb və 78 I dərəcəli məktəb fəaliyyət göstərirdi. 1926-27-ci illərdə azərbaycanlı şagirdlərin ümumi şagirdlər arasında nisbəti 85% təşkil edirdi. Məktəb yaşlı uşaqların 35%-i təhsilə cəlb olunmuşdu [8, s. 29, 30].

Naxçıvan MSSR-də bu illər ərzində yaradılan məktəblər, texnikumlar, institutlar aydındır ki, sürətlə əhalinin təhsilə cəlb olunmasını təmin edirdi ki, bu da gələcək perspektivlər üçün əhalinin savadlanması islahatını qeyd etdiyimiz kimi həyata keçirmişdi [8, s. 19-48]. Təbiidir ki, bu proseslərin aparıcı qüvvəsi Naxçıvan MSSR MİK idi. Eyni zamanda bu proseslər sovet quruculuğunun dinamik inkişafı hesab olunurdu. Naxçıvan MİK-nin atdığı müsbət addımlardan biri də təbiidir ki, o dövrdə çox vacib problem olan səhiyyə sahəsində qəbul edilən qərarlar idi. Tarixi qaynaqlardan məlumdur ki, Naxçıvanda ilk səhiyyə şöbəsi 1920-ci il oktyabrın 10-da sovet nöqteyi-nəzərinə görə, inqilabi proseslərdə fəallığı ilə seçilən Əli Abbas oğlu Abbasova tapşırıldı. Bir neçə aydan sonra isə həmin səhiyyə şöbəsi səhiyyə komissarlığına çevrildi. Ə.Abbasov səhiyyə komissarı təyin olundu (9, s. 41). Sonrakı illərdə MİK-nin qərarları əsasında səhiyyənin inkişafı, maddi-tibbi bazasının qurulması, əhalinin sağlamlığının bərpası istiqamətində əhəmiyyətli tədbirlər planı həyata keçirilmişdir. Təbiidir ki, bu istiqamətdə atılan perspektivli addımlardan biri də Naxçıvan MİK-in qərarına əsasən Naxçıvan şəhərində 1931-32-ci illərdə Naxçıvan Tibb Texnikumunun açılmasıdır [1, s. 111; 10, s. 167].

Naxçıvan MSSR-də səhiyyənin formalaşması ilə bağlı S.Sadıqov göstərir ki, 1928-ci ildən etibarən muxtar respublikanın səhiyyə xidmətində nisbətən dönüş yaratmaq mümkün olur. Həmin ildə səhiyyə məntəqələri və xəstəxanaların sayı 32-yə, həkim, feldşer və başqa xidmətçilərin sayı isə 195-ə çatır. Həkimlərdən 32 nəfəri ali təhsilli idi. Rayonların hamısında həkimlərin rəhbərliyi altında sanitar komissiyaları yaradılmışdı. 1929-1932-ci illərdə muxtar respublikada həkim məntəqələrinin, xəstəxanalarda çarpayıların, uşaq bağçalarının sayı iki dəfə artmışdı [11, s. 53].

Hətta 30-cu illərdən sonra səhiyyə sahəsində daha böyük nəticələr görünmüşdü ki, bu da təbiidir ki, elə 20-30-cu illərdə aparılan gərgin fəaliyyətin ciddi nəticəsi idi. Tədqiqatçı qeyd edir ki, 1933-1940-cı illərdə də Naxçıvan MR-də səhiyyənin inkişafında xeyli irəliləyiş əldə edilmişdi. Bir sıra xəstəliklər və onları törədən mənbələr ləğv edilmiş, şəhər və kəndlərdə səhiyyə xidmətinin səviyyəsi xeyli yüksəlmişdi. Artıq 1936-cı ildə 120-dən çox orta təhsilli, 36 ali təhsilli həkim muxtar

respublika əhalisinin cansağlığının keşiyində dayanmışdılar. Öz növbəsində səhiyyə işlərinin nisbətən qaydaya salınması muxtar respublikada mədəni quruculuq işlərinin ümumi səviyyəsini yüksəltməkdə mühüm amilə çevrilmişdi [11, s. 53].

S.Sadıqov eyni zamanda quruculuq illərində iqtisadi səmərəliliyin göstərdiyimiz sahələrlə paralel inkişaf meydana gətirdiyinə toxunaraq göstərir ki, arxiv sənədlərini, onlardakı fakt və rəqəmləri ötəri də olsa, nəzərdən keçirərkən ikinci dünya müharibəsindən, xüsusilə də, SSRİ-nin bilavasitə, müharibəyə cəlb edildiyi 1941-ci ildən əvvəlki dövrdə Naxçıvan Muxtar Respublikasında xalq təsərrüfatının bərpası, inkişafı, onun əhalisinin maariflənməsi, mədəni yüksəlişi yolunda şəksiz müvəffəqiyyətlərin əldə edilməsinin şahidi oluruq [11, s. 53].

Ancaq tədqiqatçı sovet quruculuğunun mənfi istiqamətlərini də göstərərək çox doğru olaraq qeyd edir ki, əlbəttə, bu müvəffəqiyyətlər əhalinin məruz qaldığı çoxlu məhrumiyyətlərsiz baş verərdisə, şübhəsiz, əsl nailiyyət sayıla bilərdi. Lakin Kommunist Partiyasının şəriksiz diktaturası şəraitində baş vermiş çoxlu haqsızlıqlar, əhalinin çəkdiyi ağrılı-acılı sıxıntılar həmin müvəffəqiyyətlərin çox baha başa gəldiyindən xəbər verir və bununla da onların mənəvi dəyərini xeyli azaldır, bizi “20 ildən artıq davam etmiş dinc quruculuq şəraitində daha böyük irəliləyişə nail olmaq mümkün idi” fikrinə gətirib çıxarır [11, s. 53, 54].

Əlbəttə, bu kimi prioritet addımlar Naxçıvan MSSR MİK qərarları və nəzarəti altında həyata keçirilirdi ki, məhz sovet və yaxud “Sosializm quruculuğu” terminoloji qavramı əsasında həyata keçirilirdi. Bu kimi addımların müsbət yönümü ondan ibarət idi ki, nəticə etibarilə Naxçıvan MSSR inkişaf sürətindən geridə qalmadığı üçün gələcək dövrdə müstəqillik illərinin bərpasında bu addımlar mühüm rol oynamış və Naxçıvan Respublikasının parçalanmasının və yaxud təcavüzə uğramasının qarşısını almışdı. Əlbəttə Naxçıvan MİK nümayəndələri heç də gələcəyi düşünərək bu addımı atmırdılar, ancaq nəticə etibarilə bu kimi tarixi situasiya Naxçıvanın gələcəkdə asılı vəziyyətə düşməsinin qarşısını kəsmişdi.

Aydındır ki, sovet dönəmi çox qanlı və faciəli hadisələrlə tarixin yaddaşında həkk olunmuşdur. Bu ağır tarixi şərait Naxçıvanda hətta daha ağır formada həyata keçirilmişdir. Lakin biz bu kontekstdə sovet quruculuğu istiqaməti adı altında Naxçıvan MİK-nin planlı və yaxud plansız olaraq həyata keçirdiyi tədbirlərin müsbət nəticələrini diqqətdə saxladığımız üçün mövzunun bu kimi aspektlərini gələcək tədqiqatımıza saxlamağı məqsədəmüvafiq bilirik.

2. Azərbaycan SSR rəhbərliyinin bu sahədə mövqeyi və fəaliyyəti.

Tədqiqatımızın bu hissəsində çox geniş olmasa da, Naxçıvan MSSR MİK-nin formalaşmasında Azərbaycan SSR rəhbərliyinin rolunu da diqqətdən keçirmək lazımdır. Aydındır ki, Naxçıvan MSSR tam müstəqil inzibati-siyasi quruluşa malik deyildi. Yalnız onu qeyd emək kifayətdir ki, Naxçıvan SSR büdcəsinin icrası üzrə hesabatı Azərbaycan MİK-ni təsdiq edirdi [12, s. 53]. Bu zaman Naxçıvanda formalaşan MİK Azərbaycan SSR rəhbərliyinin baxış bucağı və fəaliyyəti aspektində də müəyyən qədər nəzərdən keçirilməlidir. Naxçıvan MSSR MİK-nin yaradılması haqqında məlumat alırıq ki, bu siyasi-inzibati ali dövlət qurumu 1921-ci ilin yanvarın 21-də ali dövlət hakimiyyəti orqanı kimi yaradılan Naxçıvan Ölkə İnqilab Komitəsinin əvəzində təşkil edilmiş, 1922-ci il yanvarın 25-də öz işinə başlayan Naxçıvan SSR Birinci Sovetlər qurultayında yaradılmışdı [12, s. 30, 31]. Naxçıvan MİK Naxçıvanın Azərbaycan Respublikasının tərkib hissəsi olduğu elan edildiyi dövrdən Azərbaycan MİK-nə bağlı qurum olaraq meydana çıxdı. Bu həm də ondan irəli gəlirdi ki, bundan sonrakı dövrdə Azərbaycan Respublikası ilə razılaşdırılmadan Naxçıvan hakimiyyət orqanlarına təsir etmək imkanları aradan qaldırılırdı. Əlbəttə, bu həmişə Naxçıvana ərazi iddiaları ilə çıxış edən Ermənistan hakimiyyət orqanları üçün arzuolunan deyildi. Ancaq tarixi situasiyada bu məcburiyyətlə barışmaqdan başqa yol yox idi. Təsadüfi deyil ki, tarixi qaynaqlarda qeyd olunduğu kimi, Azərbaycan MİK-nin sessiyaları arasındakı dövrdə ali dövlət hakimiyyəti orqanı Azərbaycan MİK Rəyasət Heyəti idi. Onun tərkibinə Azərbaycan MİK-nin sədri, katibi və üzvlər daxil idilər.

Sonralar daimi üzvlərdən başqa, Azərbaycan MİK-nin Rəyasət Heyətinin tərkibinə həmçinin Naxçıvan SSR MİK-nin sədri də daxil edildi [12, s. 154].

Əlbəttə, İ.Hacıyevin qeyd etdiyi kimi, ermənilər Naxçıvandan sonrakı illərdə də sovet rəhbərliyinin təcavüzkar siyasəti nəticəsində torpaq qoparmağa nail olmuşdular [13, s. 160-162], ancaq bu aqressiv addımlar bütünlüklə Naxçıvanı Ermənistana birləşdirmək arzusunun reallaşmasını heç zaman təmin etmədi. Əlbəttə, bu prosesdə Naxçıvan MİK-nin Azərbaycan SSR MİK-nə bağlılığı mühüm rol oynamışdı. Məhz Azərbaycan sovet rəhbərliyinin Naxçıvan MİK haqqında mövqeyi və rolu ondan ibarət idi ki, Naxçıvanın Azərbaycanın tərkib hissəsinə çevrilməsində Azərbaycan MİK-nə tabe olan Naxçıvan MİK mühüm rol oynayırdı. Bu barədə İ.Hacıyev təsadüfi olmayaraq arxiv materiallarına əsasən göstərir ki, Naxçıvan MSSR-in yaradılması üçün qəbul edilən bir çox sənədlər kafi deyildi. Buna görə də Naxçıvan MSSR-in konstitusiyanın qəbulu zəruri idi. Muxtar qurum olaraq Naxçıvan Muxtar Respublikasının konstitusiyası hazırlanaraq 1925-ci il 27 dekabr tarixində Naxçıvan SSR MİK-nin IV çağırış II sessiyasında qəbul olundu və baxılmaq üçün Azərbaycan MİK-ə göndərildi. Bu siyasi prosesin nəticəsində Naxçıvan MSSR-in ilk konstitusiyası 1926-cı ildə qəbul olundu [14, s. 186].

**Nəticə.** Göründüyü kimi, Naxçıvan MİK-nin formalaşmasında Azərbaycan SSR rəhbərliyinin mövqeyi və rolu bu aspektdə çox aydın görünür. Beləliklə, Naxçıvan MSSR-in yaradılması və bu istiqamətdə qərarların qəbul edilməsi, ilk konstitusiyanın formalaşdırılması üçün məhz Naxçıvan MİK əsas rolda çıxış edirdi ki, bu da Azərbaycan rəhbərliyinin ən vacib mövqeyini həyata keçirir, Naxçıvanı Azərbaycan Respublikasının tərkibində hüquqi subyekt kimi ali-inzibati qurumlar vasitəsilə reallaşdırırdı.

Son olaraq qeyd edək ki, bu mövzu geniş tədqiqatlarda öz əksini tapır. Müxtəlif arxiv materiallarından bu kontekstdə də geniş istifadə olunur. Tədqiqat işlərimizdə daha geniş əhatədə yeni arxiv materiallarının və tarixi qaynaqların meydana çıxmasını şərtləndirərək bu kimi dövlətçilik məsələlərini əhatə edən mövzunu funksional səviyyələrdə elmi auditoriyaya təqdim etməyə çalışacağıq.

## ƏDƏBİYYAT

1. Cəfərov F.A., Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuğun inkişaf tarixindən (1920-1945-ci illər). Naxçıvan: Əcəmi, 2021.
2. NMRDA: F. 1, siy. 1, iş 5.
3. Глущенко И.В. Советский просветительский проект: ликвидация неграмотности среди взрослых в 1920-1930-е годы // Вопросы образования, 2015, № 3.
4. Azərbaycan tarixi: 7 cilddə. VI c.: Aprel 1920 – iyun 1941, Bakı: Elm, 2008.
5. NMRDA: F. 1, siy. 1, iş 33.
6. ARDA: F. 1, siy. 1, iş 44.
7. Məmmədova Y. Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin inkişaf tarixi (1991-2015-ci illər). Naxçıvan: Əcəmi, 2022.
8. Cəfərov H. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: Elm və təhsil, 2011.
9. Məmmədov A.N. Naxçıvan MSSR-də səhiyyənin tarixi və mərhələli inkişafı (1826-1966). Bakı: Nurlan, 2006.
10. Naxçıvan ensiklopediyası: 2 cilddə. II c., Naxçıvan, 2005.
11. Sadıqov S.H. Naxçıvan Muxtar Respublikası tarixindən. Bakı: İrşad, 1995.
12. Naxçıvan Muxtar Respublikası konstitusiyalarda / Tərtib edəni E.Cəfərov. Bakı: Elm və Təhsil, 2014.
13. Hacıyev İ. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: Əcəmi, 2012.
14. Hacıyev İ. Naxçıvan Azərbaycanın dövlətçilik tarixində. Bakı: Elm, 2018.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ymemmedova49@gmail.com***

**Yegana Mammadova**

## ACTIVITIES OF THE CENTRAL EXECUTIVE COMMITTEE OF THE NAKHCHIVAN ASSR IN THE FIELD OF SOVIET CONSTRUCTION AND THE POSITION OF THE LEADERSHIP OF THE AZERBAIJAN SSR IN THE FORMATION OF THIS POLITICAL AND ADMINISTRATIVE STRUCTURE

The activities of the CEC of the Nakhchivan MSSR in the field of Soviet construction, the position, and role of the leadership of the Azerbaijan SSR in the formation of this institution are the subject of extensive research. Of course, it is impossible to fully cover this topic within the framework of one small study. From this perspective, we tried to consider the Nakhchivan CEC and the attitude of the leadership of Azerbaijan to this highest political institution in a positive context. It is known that the period of the creation of the CEC falls on the main period of the Soviet occupation. However, in this research work, we tried to draw attention to the results of the positive steps of the CEC. Of course, we noted that the negative political activity of the CEC also existed in a tense historical situation, and discussed the important role of positive results in the development of the national state. Initially, we divided the subject into two distinct sections, scrutinizing the activities of the Central Executive Committee of the Nakhchivan ASSR in the domain of Soviet construction, as well as the position and activities of the leadership of the Azerbaijan SSR in this domain. Of course, this also led to a clearer understanding of the subject. Initially, the Central Executive Committee of the Nakhchivan ASSR was responsible for education, health care, economy, etc. under the auspices of Soviet construction.

We drew attention to its activities in various fields, especially the role of the CEC in solving such serious problems as alphabet reform and the fight against illiteracy. Later, we clarified the role and position of the leadership of the Azerbaijan SSR in the formation of the Nakhchivan CEC. Here, it is shown that the main purpose of the leadership and the CEC of the Azerbaijan SSR in creating the Nakhchivan Central Executive Committee was to keep the Nakhchivan Autonomous Republic within the Azerbaijan SSR. The historical results of this position saved Nakhchivan from Armenian aggression and the complete loss of independence. Based on this, it is impossible to negate the special role of the Nakhchivan Central Election Commission. This study contains many innovations in the field of historiography and political science. We hope that the study will attract the attention of the scientific community due to its originality.

**Keywords:** *CEC of Azerbaijan, CEC of the Nakhchivan ASSR, alphabet reform, fight against illiteracy, education, health care, economy.*

**Егане Мамедова**

## ДЕЯТЕЛЬНОСТЬ ЦЕНТРАЛЬНОГО ИСПОЛНИТЕЛЬНОГО КОМИТЕТА НАХЧЫВАНСКОЙ АССР В ОБЛАСТИ СОВЕТСКОГО СТРОИТЕЛЬСТВА И ПОЗИЦИЯ РУКОВОДСТВА АЗЕРБАЙДЖАНСКОЙ ССР В ФОРМИРОВАНИИ ЭТОЙ ПОЛИТИКО-АДМИНИСТРАТИВНОЙ СТРУКТУРЫ

Деятельность ЦИК Нахчыванской МССР в области советского строительства, позиция и роль руководства Азербайджанской ССР в становлении этого учреждения являются предметом обширных исследований. Конечно, полностью охватить эту тему в рамках одного небольшого исследования невозможно. С этой точки зрения мы постарались рассмотреть Нахчыванский ЦИК и отношение руководства Азербайджана к этому высшему политическому институту в позитивном контексте. Известно, что период создания ЦИК приходится на основной период советской оккупации. Однако в данной исследовательской работе мы постарались обратить внимание на результаты положительных шагов ЦИК. Конечно, мы отметили, что негативная политическая

деятельность ВПК также существовала в напряженной исторической ситуации, и обсудили важную роль позитивных результатов в развитии национального государства. Первоначально мы абстрагировали тему в двух частях, рассмотрев в отдельных аспектах деятельность Центрального Исполнительного Комитета Нахчыванской АССР в области советского строительства, а также позицию и деятельность руководства Азербайджанской ССР в этой области. Разумеется, это также привело к более ясному представлению о предмете. Изначально Центральный Исполнительный Комитет Нахчыванской АССР отвечал за образование, здравоохранение, экономику и т. д. под эгидой советского строительства. Мы обратили внимание на его деятельность в различных областях, особенно на роль ЦИК в решении таких серьезных проблем, как реформа алфавита и борьба с неграмотностью. Позже мы уточнили роль и позицию руководства Азербайджанской ССР в формировании Нахчыванского ЦИК. В частности, здесь показано, что роль руководства и ЦИК Азербайджанской ССР в формировании Нахчыванского Центрального Исполнительного Комитета в основном исходила из целей сохранения Нахчыванской Автономной Республики в составе Азербайджанской ССР. Именно положительные исторические результаты этой позиции спасли Нахчыван от армянской агрессии и полной потери независимости. Исходя из этого, нельзя отрицать особую роль Нахчыванского ЦИКа. В данном исследовании присутствует множество новаций в области историографии и политологии. Мы надеемся, что исследование привлечет внимание научного сообщества благодаря своей оригинальности.

**Ключевые слова:** *ЦИК Азербайджана, ЦИК Нахчыванской АССР, реформа алфавита, борьба с неграмотностью, образование, здравоохранение, экономика.*

*(Tarix üzrə elmlər doktoru Emin Şıxəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 16.01.2025**
**Son variant 19.02.2025**